# Vətən müharibəsində Azərbaycan hərbçilərinin kütləvi qəhrəmanlıqları

**Azərbaycan çox gözəl və qədim diyardır. Azərbaycan xalqı öz qüruru, qüdrəti, maddi-mənəvi dəyərləri ilə öyünməyə layiq olan bir xalqdır. Hər bir Azərbaycan vətəndaşı ona görə xoşbəxtdir ki, doğma yurdu, müstəqil dövləti, torpaq uğrunda canını fəda etməyə hazır olan qəhrəman oğulları, daima fəxr ediləcək keçmişimiz, çiçəklənən bu günümüz, parlaq gələcəyimiz var. Vətənimiz də xoşbəxtdir ki, ona ürəkdən bağlı olan xalqı, yağılardan qorumağa qadir olan güclü ordusu, ölümü gözə alaraq, varlığından imtina etməyə hazır olan şəhidləri var!**




Eşqin, məhəbbətin ən böyüyü, ən ülvisi vətən eşqidir, vətən məhəbbətidir. Vətən - torpağımız, suyumuz, çörəyimiz, el-obamız, ev-eşiyimiz, azadlıq və müstəqilliyimizdir.

Torpaq vətən deyil, üstünə qan töküləndən sonra vətən olur. Torpaq qəhrəmanlara güvənir. Doğru deyirlər ki, doğma torpaq uğrunda vuruşan hər əsgər bir orduya bərabərdir. Qəddar düşmən də Vətənin belə igid, mərd oğullarının şücaəti sayəsində diz çökdürülüb. Vətən torpaqlarını düşmən tapdağı olmaqdan hifz eləmək xalqımızın bütün qeyrətli oğullarının əsas məqsədi, amalı olub.

Torpaqlarımızın Ermənistan tərəfindən işğalının əsası hələ XIX əsrin əvvəllərində qoyulub. Mənfur düşmən tarix boyu öz məkrli niyyətlərini həyata keçirmək üçün müxtəlif hiylələrə əl atsa da layiqli cavablarını alıblar. Necə deyərlər, "Qana qan, cana can!"

Hər kəsə məlumdur ki, "Torpaq qansız və döyüşsüz geri alınmır!". Comərdlərimiz illərin həsrətinə son qoyaraq, bizi tarixi dədə-baba torpaqlarımıza - Qarabağımıza qovuşdurdular. Bu gün dünyanın ən qaynar nöqtələrindən olan Qarabağ torpağı bizim üçün daha doğma, daha əzizdir.

Keçmişə nəzər salsaq, əvvəlki müharibələrdən fərqli olaraq, müasir dövrün müharibələrində qalibiyyətin şərti yaxşı silahlanmış, təchizatlı, böyük ruh yüksəkliyinə sahib ordu ilə yanaşı, güclü informasiya dəstəyi, aktiv hücüm diplomatiyası və nəhayət, ən əsası, mənəvi-ruhi cəhətdən səfərbər olunmuş xalqın olmasıdır.

Müharibə, sadəcə, orduların qarşı-qarşıya gəlib savaşdığı hadisə deyil, həm də insanların, eyni zamanda vaxtın da düşmənidir. İllər boyu bədnam qonşularımız olan ermənilər biz azərbaycanlıları davaya sürükləyib, qan töküb, düşmənçilk toxumu səpiblər.

I Qarabağ savaşını alovlandıran qığılcım Şuşa ətrafındakı Topxana meşəsi idisə, 44 günlük Qarabağ - Vətən müharibəsinin qığılcımı da Milli Qəhrəman general-mayor Polad Həşimovun şəhadəti oldu.

Qarabağ müharibəsi xalqımıza vətən həsrəti verdi. Çoxlarının gözü yolda, arzuları yarımçıq qaldı. Bu müharibədə neçə-neçə insan sağlamlığını itirdi. Düşmən öz məkrli hiyləsi ilə xalqımızı məhv etmək istəsə də, buna nail ola bilmədi. Vətənin müdafiəsi uğrunda ayağa qalxan qəhrəman oğullarımız son damla qanınadək döyüş meydanından geri çəkilmədi. Vətəninə, millətinə olan övlad sədaqəti onları düşmənlə mübarizəyə səsləyirdi.

2020-ci il sentyabrın 27-də səhər saat 06:00 radələrində Ermənistan silahlı qüvvələrinin bölmələri tərəfindən genişmiqyaslı təxribat törədildi və cəbhəboyu zonada yerləşən Azərbaycan Ordusunun mövqeləri, yaşayış məntəqələri iriçaplı silahlar, minaatanlar və müxtəlif çaplı artilleriya qurğularından intensiv atəşə tutuldu. Fəlakət buludları başımızın üstünü alanda, apaydın səmamız qaralara boyananda igid oğullarımız silaha sarılıb mənfur düşmənə qarşı ölüm-dirim savaşına qalxdılar. Bu savaş qəzəbdən, intiqamdan yoğrulmuşdu. Qəlbində vətən sevgisi gəzdirən heç bir insan bu savaşdan kənarda qalmamışdı. Yaxşı k, mərdlər, dönməzlər, səbatlılar daha çox idi.

Azərbaycanın Ordusunun 2020-ci il sentyabrın 27-də işğalçı Ermənistana qarşı başladığı uğurlu əks-hücum əməliyyatı ilə təcavüzkarın 30 il ərzində işğal altında saxladığı əzəli-əbədi torpaqlarımız azad olundu. Əks-hücum əməliyyatı nəticəsində noyabrın 9-dək ümumilikdə 5 şəhər, 4 qəsəbə və 286 kənd işğaldan azad edildi. Azərbaycan itirilmiş torpaqlarına, haqq-ədalətə 30 il ərzində apardığı danışıqlarla deyil, müharibə, döyüş yolu ilə qovuşdu. Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyü uğrunda gedən mübarizədə rəşadət göstərən əsgər və zabitlərimiz, bütövlükdə xalqımız əzm və iradə, birlik və həmrəylik nümayiş etdirərək, düşmənə sarsıdıcı zərbələr endirdi. Vətən sevdalı, şir ürəkli əsgər və zabitlərin bacarıq, dəyanət və şücaətləri sayəsində torpaqlarımız mənfur düşməndən azad edildi.

Beləliklə, Azərbaycan xalqı və şanlı Ordumuz Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin qüdrətli rəhbərliyi ilə 44 günlük İkinci Qarabağ müharibəsində parlaq qələbə qazandı. Vətən müharibəsində tarixi Zəfər cəsur Azərbaycan oğullarının fədakarlığı, canı və qanı bahasına qazanıldı. Çox şükür ki, bir vaxtlar düşmən tapdağında olan torpaqlarımızda bu gün üçrəngli bayrağımız dalğalanır.

Bu, dünyanın müasir hərb tarixində misli görünməmiş uğurlu hərbi əməliyyat idi. 44 günün hər günü Azərbaycanın şanlı tarixidir. 44 günlük savaşda qazanılan tarixi Zəfər hər bir azərbaycanlı üçün son dərəcə əziz və qiymətlidir. Prezident İlham Əliyevin vurğuladığı kimi, tariximizdə əbədi yaşayacaq bənzərsiz bir zəfərlə düşmən doğma diyarımızdan qovuldu, Qarabağ qaytarıldı. Bununla da Xocalı qurbanlarının, I Qarabağ müharibəsinin, Aprel və Tovuz döyüşlərinin qəhrəmanlarının, Gəncə, Bərdə və digər şəhər və rayonlarımızda soyqırımı zamanı həlak olan günahsız insanların qisası döyüş meydanında alındı. İşğalçı Ermənistana layiq olduğu yer göstərildi! Beləliklə, ərazi bütövlüyümüz, haqq-ədalət, beynəlxalq hüquq bərpa olundu. Azərbaycan XXI əsrin müharibəsini apararaq hərbi gücü, qüdrəti ilə dünyaya səs saldı.

Vətən müharibəsində qazanılmış qələbə təkcə həqiqətin sevinci deyil, insanların daxilindən gələn hissin ifadəsi idi.

Qələbəni qəhrəmanlar gətirdi, şəhidlər qanı ilə qazandı. Qəhrəmanlığa aparan yol müqəddəsdir. Bu yol ucalıqdır. Bu yol insanı ən yüksək zirvəyə çatdırır.

İkinci Qarabağ müharibəsində qazanılmış şanlı qələbənin əsasında əsgər və zabitlərimizin qəhrəmanlığı və vətənpərvərliyi dayanır. Dövlətimizin başçısı bunu dəfələrlə vurğulayıb və çıxışlarının birində belə deyib: "Bu qələbəni qazanan bizim texniki vasitələr yox, əsgər və zabitlərimizdir. Onlar torpağımızı düşməndən qarış-qarış azad edə-edə bu qələbəni, bu zəfəri xalqımıza nəsib etdilər. Ona görə bu qələbənin birinci qəhrəmanı Azərbaycan əsgəridir, Azərbaycan zabitidir və hər kəs bunu bilməlidir". Hər birimiz rəşadətli Azərbaycan Ordusu və əsgəri ilə fəxr edə bilərik. Məğrur Azərbaycan əsgəri ata-babaların apardıqları mübarizəni qələbə ilə yekunlaşdırdı.

Axıdılan şəhid qanları hədər getmədi. Xalqımızın 30 illik arzusunu reallığa çevirən, Azərbaycanın hərbi qüdrətini bütün dünyaya göstərən, bizi qalib xalqa çevirən qəhrəman əsgər və zabitlərimiz bu gün işğaldan azad olunmuş torpaqlarımızın, Vətən sərhədlərinin müdafiəsində "Dəmir yumruq" kimi dayanmaqda davam edirlər. Azərbaycanın örnək olan övladları çoxdur. Əqidəsindən dönməyən, vətən yolunda canını qurban verən qəhrəmanlarımız hər birimiz üçün qürur mənbəyidir.

Vətənin çətin günündə əsl övlad sevgisi, qeyrəti ilə onun harayına qalxmaq, el-obanın dərd-sərinə yanmaq ən ali məziyyətdir. Döyüş əhval-ruhiyyəsi heç vaxt canımızdan, qanımızdan çıxmamalıdır. Mübarizə ruhu hər zaman bizimlə yaşamalıdır.

Deyirlər, tarix danışmayan şahiddir, tarixi danışdırmaq lazımdır. II Qarabağ savaşında Azərbaycan Ordusu dastan yazdı. "Qarabağ dastanı" tarixi şahidlərin dili ilə danışdırır.

30 il düşmən əsarətində yaşayan, daşı daş üstə qalmayan, soydaşlarımızın goru çatladılan, Xarıbülbülü açmayan Qarabağımız 44 gün ərzində öz anasına - Odlar Yurduna qovuşdu. Ali Baş Komandan İlham Əliyevin "müqəddəs şəhər" adlandırdığı Şuşa Qarabağın tacı, Azərbaycanın incisidir, Şuşa zirvədir. Şuşa bütün azərbaycanlılar üçün dünəndir, bu gündür, sabahdır. Yurdumuzun "nur parçası" olan Şuşa artıq xəyal deyil, nağıl deyil, nisgil deyil! Şuşa artıq Şuşadan ötrü "ölənlər" üçün gerçəkdir!

Bu gün Şuşanı Ali Baş Komandan kimi vəsf edə bilən, Şuşa deyəndə üzündə günəş doğan bir insan yoxdur. Qoy uca Tanrı hər bir Azərbaycan vətəndaşına müqəddəs Qarabağ torpağını öpməyi nəsib etsin!..

Bu, ölkə Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin müdrik siyasətinin və Azərbaycan Ordusunun qüdrətinin, döyüş ruhunun məntiqi nəticəsi idi. Dövlətimizin başçısının vurğuladığı kimi, müzəffər silahlı qüvvələrimiz bu savaşla təkcə faşist Ermənistan dövlətini deyil, həm də insanlığa qənim kəsilən faşizmi məğlubiyyətə uğratdı.

Qalib sərkərdə, həmçinin qeyd edib ki, təkcə silahlarla müharibəni qazanmaq mümkün deyil. "Bayrağı qaldırıb, azad edilmiş torpaqlara sancan əsgərdir, zabitdir. Azərbaycan Ordusunun Vətən sevdalı əsgər və zabitləri aslan kimi vuruşublar. Biz qəhrəman əsgər və zabitlərimizin hesabına qələbə qazanmışıq. Şəhidlər verdik. Allah bütün şəhidlərimizə rəhmət eləsin! Şuşanın işğaldan azad edilməsi əməliyyatı, əminəm ki, tarixdə əbədi qalacaq. Deməк olar ki, yüngül silahlarla dərədən, meşələrdən, dağlardan keçərək əlbəyaxa döyüşdə düşməni məhv etdik, Qarabağın tacı olan Şuşanı azad etdik", - deyə ölkə rəhbəri vurğulayıb.

30 illik həsrət də bir sınaq, bir imtahan idi. Allah bu imtahandan da Şuşanı qalib çıxartdı. Müzəffər Ali Baş Komandan İlham Əliyev cəsur əsgərləri ilə tikanlı yolların sonunu güllüyə çevirdi, Zəfər yoluna çevirdi!

Xalq Vətən uğrunda mübarizəyə qalxan Ordusu ilə, öz Prezidenti, Ali Baş Komandanı ilə birləşdi. İllər keçəcək, xalqımızın bu birliyi bir daha heç vaxt sarsılmayacaq. Çünki bu birliyin də Vətənimizin işğal tarixi kimi 30 yaşı var.

44 günlük Vətən müharibəsi nəticəsində Azərbaycan əsgəri ermənilərin özləri barədə uydurduğu "qəhrəman xalq" mifini darmadağın etdi: "Bu müharibə bizim üçün ən böyük zəfər möcüzəsi idi. Bu möcüzənin yaradıcısı isə Azərbaycan xalqının birliyi, müzəffər ordumuz və ordunun Ali Baş Komandanı, cənab Prezident İlham Əliyevdir". "Biz üç tandemin - xalq, ordu və ölkə başçısının birliyi sayəsində böyük qələbəyə imza atdıq. Ordunun, silahların diliylə biz 30 illik həsrətimizə son qoyduq. Biz aydın səmamızı, nurlu sabahlarımızı, bəxtiyar gələcəyimizi cəsur oğullarımızın sayəsində əldə etdik.

Tarixə düşmüş və yüz illər boyunca milli tariximizin iftixarı olacaq 44 günlük Vətən müharibəsi mənfur düşmənin qonşuya xəyanətinə son qoyaraq bütün dünyaya Azərbaycan xalqının qüdrətini göstərdi. Bununla da Azərbaycan xalqının, əsgərinin hünəri, şücaəti, şöhrəti bütün dünyaya yayıldı.

Bu gün bayrağımız, əvvəlki illərdən fərqli olaraq, daha əzəmətlə və qürurla dalğalanır. Bayrağımızın əbədi dalğalanacağı məkan isə bəllidir - xalqımızın döyünən ürəyi və Vətən torpaqlarının ən uca zirvələri! O zirvələr ki, qəhrəman oğullarımız şücaətləri ilə fəth etdilər! Qəhrəman Vətən oğullarını düşünərkən, Vətənin, dövlətinin qeyrətini çəkən igidlərimizi, qəhrəmanlıq salnaməsinin mələklərinə dönən, şəhadətləri ilə tarix yazan və tarixin əbədi yaddaşına həkk olunan şəhidlərimizi tanımaq və tanıtdırmaq hər birimizin borcudur. Hər kəsə nəsib olmayan müqəddəslik zirvəsinə ucalan, yurdun azadlıq salnaməsini qanı ilə yazıb, canı ilə qazanan oğullar sayəsində torpaq Vətəndir!

*Gülnar BƏŞİROVA*
*AMEA-nın dissertantı,*
*Azərbaycan Hərb Tarixi Muzeyinin tədqiqatçı-elmi işçisi*